DÖVLƏT
VERGİ
XİDMƏTİ

# POS-terminallardan istifadə etməmək məsuliyyətə səbəb olur!

**Vergi Məcəlləsində edilmiş dəyişikliyə əsasən**

❖ POS-terminalların quraşdırılması məcburi olan obyektlərdə POS-terminalların quraşdırılmamasına;

❖ POS-terminallar quraşdırılmış obyektlərdə nağdsız ödənişlərin qəbulundan imtina edilməsinə görə:

- təqvim ili ərzində belə hallara birinci dəfə yol verildikdə 1.000 manat məbləğində;
- təqvim ili ərzində belə hallara ikinci dəfə yol verildikdə 3.000 manat məbləğində;
- təqvim ili ərzində belə hallara üç və daha çox dəfə yol verildikdə isə 6.000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

Xatırladırıq ki, nağdsız ödənişlərin aparılması üçün "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 17-ci maddəsinə uyğun olaraq, POS-terminalların quraşdırılmasını təmin etmək Vergi Məcəlləsinə əsasən vergi ödəyicisinin vəzifələrinə aid edilmişdir.

Nazirlər Kabinetinin 2012-ci il 4 oktyabr tarixli 219 nömrəli Qərarına əsasən, POS-terminallar quraşdırılacaq obyektlər aşağıdakılardır:

- əlavə dəyər vergisi ödəyicilərinin bütün təsərrüfat subyektləri (obyektləri);
- avtomobil və mebel satışı üzrə ixtisaslaşmış müəssisələr, idman və sağlamlıq kompleksləri, səhiyyə obyektləri, istirahət və əyləncə obyektləri, mehmanxanalar, şadlıq evləri, yanacaqdoldurma məntəqələri, hava, su, dəmiryol və avtomobil nəqliyyatı vasitələri ilə sərnişindaşımada biletlərin satışını həyata keçirən satış məntəqələri və turizm şirkətləri;
- rüb üzrə orta aylıq dövriyyəsi 2.000 (iki min) manatdan artıq olan vergi ödəyicilərinin bütün təsərrüfat subyektləri (obyektləri);
- hüquqi şəxslərə və fərdi sahibkarlara məxsus minik avtomobili ilə (taksi) sərnişin daşınmasını həyata keçirən nəqliyyat vasitələri;
- vergilərin və göstərilən xidmətlərə (işlərə) görə dövlət rüsumlarının və haqlarının ödənişini qəbul edən dövlət orqanları.